"NAXÇIVAN" UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2019, № 1
"NAKHCHIVAN" UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2019, № 1
УНИВЕРСИТЕТ "НАХЧЫВАН"/ НАУЧНЫЕ ТРУДЫ/ 2019, № 1

**UOT 398:801.6;398:82.0;801.8**

**NAZİRƏ ƏSGƏROVA**
AMEA Naxçıvan Bölməsi
naziraasgerova@yahoo.com

# MƏİŞƏT NAĞILLARINDA OBRAZLAR SİSTEMİ

*Məişət nağıllarında müxtəlif epizod, motiv, süjet və obrazlar mövcuddur ki, onlar da xalqın əxlaq tərzi, ənənə və dünyaya baxışları ilə zəngindir. Məqalədə bu obrazların bəziləri haqqında araşdırma* aparılmış*, onların xalqın məişət həyatı ilə əlaqəli dünyagörüşünü ifadə etmək baxımından əhəmiyyətli olduğunu aşkarlamağa çalışılmışdır. Belə ki, Naxçıvandan toplanmış nağıllarda yer alan keçəl, şah, qadın, kəndli və sair kimi obrazlar təhlil olunubdur. Eyni zamanda bu obrazların nağılın ümumi süjetində oynadığı rol, tutduğu mövqe təhlil edilərək konkret nəticələr əldə edilmişdir.*

**Açar sözlər:** *obraz, xalq, məişət, motiv, süjet, əxlaq, nağıl.*

Azərbaycan nağıllarının böyük bir hissəsini məişət nağılları təşkil edir. Sayca məişət nağılları digərlərindən çoxdur. Azərbaycan məişət nağılları içərisindəki nümunələr öz zəngin informasiya tutumuna görə xüsusilə seçilir. Bu baxımdan Naxçıvan folklor antologiyalarında toplanmış məişət nağıl nümunələri spesifik əlamətlərinə görə milli epik informasiyanın daşıyıcılarıdır. Folklorşünas P.Əfəndiyev haqlı olaraq söləyir ki, "...məişət nağıllarının qəhrəmanları simasında xalqın arzu və istəkləri, onun təcrübə və müşahidələri, dünyaya baxışı, gələcəyə inamı təsvir edilir, ağıl, zəka, çeviklik, alicənablıq, xeyirxahlıq ilk plana çəkilir" (4,s.124). Folklorşünasın söylədiyi bu dəyərli fikirləri biz Naxçıvandan toplanmış məişət nağıl nümunələrində də müşahidə etməkdəyik. Naxçıvandan əldə edilmiş nağıl mətnlərində əraziyə məxsus həyat şəraiti, yaşam tərzi, adət-ənənə də öz ifadəsini tapır. Biz bu məqamla Naxçıvan nağıl mətn nümunələrindən olan "Mərcan xanım" nağılında daha geniş şəkildə qarşılaşırıq: Padşah qızı Mərcan xanım qoca tacir Sövdayara ərə verilir. Mərcan buna çox hirslənir. Əvvəldən sevdiyi cavan və qoçaq əmisi oğlu ilə toy günü qoşulub qaçır. Başına gələn uğursuzluqlardan heç də sarsılmır. Hər dəfə böyük çətinliklə üzləşən Mərcan bütün vəziyyətlərdən öz ağlı və fərasəti ilə qurtulur (1, s.8)

Nağılda bir məqamda Mərcan xanım yenə də rastlaşdığı uğursuzluqdan yaxa qurtarmaq istəyərkən müxtəlif üsullara əl atır. Mərcan xanım aldadıb gəmiyə gətirdiyi qızları haxışta demək adı ilə gəmiyə salır. Qızlar haxışta demək sevinci ilə heç vaxt görmədikləri, dənizdə otaq sandıqları gəmiyə doluşurlar.

Nağılın bu məqamında adı çəkilən haxışta, bildiyimiz kimi, Naxçıvana aid toy nəğməsidir. Naxçıvan toylarını haxıştasız təsəvvür etmək mümkün deyil. Toyun ilk mərhələsi sayılan nişantaxtı mərasimindən başlayaraq gəlin

**Məqalə tarixçəsi:**
Göndərilib: 17.02.2019, qəbul edilib: 26.02.2019

hamamı mərasimində daha geniş şəkildə icra olunan haxışta mərasimi toyun özündə hər iki tərəfin: oğlan və qız tərəflərinin maraqlı deyişmələri ilə bitir. Bir sözlə, Naxçıvan toy mərasiminin xarakterik ritualı olan haxışta ərazinin qadınlarının sevə-sevə icra etdiyi nəğmələrdir.

Məişət nağıllarının əsas qəhrəmanları şah, keçəl, qarı, yetim, muzdur, nökər, ilxıçı, çoban, bir-birini çox sevən bacı-qardaş, üç bacı, kəndli və s. kimi nümayəndələr olur. Folklorşünas P.Əfəndiyev haqlı olaraq qeyd edir ki, nağılların əvvəlində onlar gücsüz, bacarıqsız kimi təsvir olunur. Sonra sanki bunlar yeni fiziki və əqli qüvvə kəsb edir, bütün maneə və tilsimlərə qələbə çalaraq bacarıqlı, ağıllı, ədalətli insan, hətta tədbirli hökmdar dərəcəsinə qədər yüksəlirlər (4,s.123).

Naxçıvan nağıl mətnləri üzərində araşdırma apararkən öz qeyri-adi bacarıqları ilə nağıl qəhrəmanlarına çevrilən sənətkarlar – bənna, dülgər, zərgər və s. kimi obrazlarla da qarşılaşdıq. Ərazidən toplanmış "Üç sənətkarın nağılı"nda bu üç obrazın hər birinin maraqlı qarşılaşması müşahidə olunur. Nağılın məzmununa diqqət etməklə fikrimizi sübut etmiş oluruq: "Bir şəhərdə məşhur olan üç sənətkar – bənna, dülgər və zərgər öz əl işləri ilə həmişə fəxr edirlər. Bir gün üç sənətkar, həm də üç dost bir-biri ilə qeyri-adi əşyalar düzəltməklə daha da məşhurlaşacaqları haqqında mübahisə edirlər. Bənna deyir ki, mən elə bir ev tikərəm ki, kərpicinin hərəsi min rəngə çalar. Gündə üç dəfə rəngdən rəngə düşər. Külək hansı tərəfə əssə, ev o tərəfə fırlanar. Dülgər deyir ki, taxtadan elə at qayıraram ki, üstündə oturub hara desən, ora aparar. Zərgər deyir ki, mən də qızıldan, gümüşdən elə xoruz düzəldərəm ki, qanadlarının hər biri tovuz quşu kimi yüz rəngə çalar. Özü də şəhərə yad adam gələn kimi banlayıb xəbər verər. Dərviş paltarında şəhəri gəzən şah sənətkarların mübahisəsini eşidən kimi əmr edir ki, həmin şeyləri qırx günə düzəltsinlər. Sənətkarlar, əlacsız qalıb söz verdikləri əşyaları düzəldirlər. Qırx günə ev, at, xoruz hazır olur. Padşah təzə evə gəlir ki, evin hər tərəfi bir rəng verir. Xoruz bunları görən kimi qapıya çıxıb banlayır. At da evin qabağında hazır dayanıb sahibini gözləyir. Padşah sənətkarlara bəxşiş verib onları yola salır. Aradan bir az keçmiş, başqa ölkənin padşahı qəflətən buraya hücuma keçir. Güclü qoşun şəhərə girir. Gecə vaxtı, hamı yatdığı vaxtda xoruz banlamağa başlayır. Padşah da yuxudan oyanıb xoruza acığı tutur ki, niyə məni yatmağa qoymursan. Əsəbiləşib xoruzu yerə çırpıb əzir. Bu zaman vəzir gəlib xəbər verir ki, qibleyi-aləm, düşmən qoşunu şəhərə hücum edib. Padşah o an xoruzun banlamağının səbəbini anlayır. Əmr edir, qoşun hazır olur. Bir pəhləvan taxta atın içinə çoxlu daş doldurub göyə qalxır. Düşmən qoşununu qorxudub şəhərdən çıxarırlar. Padşah isə xoruzu əzdiyinə peşman olur. O qədər peşman olur ki, ömür boyu belə peşmançılıq çəkməmişdi. Xoruzu düzəldən zərgər padşahın bu hərəkətindən acıq edib şəhəri tərk etmişdi" (1, s.155). Nağılın məzmunundan göründüyü kimi, nağıl qəhrəmanları olan zərgər, dülgər və bənna şahın qarşısında müxtəlif sınaqlarla üzləşirlər. Lakin verdikləri sözün öhdəsindən layiqincə gəlirlər. Padşah da öz xəzinəsindən onları mükafatlandırır. Öz əl əməyi ona harda olursa olsun, əziz olan zərgər padşahın xoruzu əzməsini biləndən sonra şəhəri tərk edir. Nağılın bu hissəsində bir əxlaqi məqam ön

plana çəkilir. Əməyə qiymət təkcə maddiyyatla deyil, həm də zəhmətinin məhsulunu dəyərləndirməklə onu ərsəyə gətirənin dəyərli olduğunu göstərmək bu nağılın kompozisiyasının əsasını təşkil edir.

Bəzi məişət nağıllarından onun yarandığı dövrün məişət xüsusiyyətlərini də müəyyən etmək mümkündür. Xalqın yaşayış tərzi, həyatı və s. kimi xüsusiyyətlər barədə məlumat vermək baxımından məişət nağılları olduqca dəyərlidir. Yuxarıda məzmununu verdiyimiz nağılın yarandığı dövrdə bəzi peşə və sənət sahələrinin – zərgərlik, bənnalıq və dülgərliyin həmin dövr üçün əhəmiyyətli sənət sahələri olduğunu müəyyən etmək mümkündür.

Bu barədə prof. F.Bayat söyləyir ki, "...Məişət nağıllarının əsas cəhəti reallıqdır. Ümumiyyətlə, nağıllardan, xüsusən də məişət nağıllarından xalqın gerçək yaşamını, nə ilə məşğul olduğunu, hansı təsərrüfat sistemindən yararlandığını, xalqın təsərrüfat tipini öyrənmək mümkündür. Ən əsası da məişət nağılları milli psixologiyanı, milli təfəkkürü və düşüncəni yansıtan güzgü kimidir. Orada biz özümüzü aydın görürük..." (2, s.125).

Məişət nağıllarının maraqlı obrazlarından biri də keçəldir. Nağıllarda keçəl, əsasən, kasıb ailədə dünyaya gəlir. Ailəsinin kasıblığı qədər də ağıllı olan keçəl bu vəziyyətdən öz ağlı və fərasəti ilə qurtulmağa çalışır. Üzləşdiyi hər bir çətinlikdə sınmır, daha da mətinləşir, möhkəmlənir. Fiziki cəhətdən zəif olan keçəlin ağlı o qədər iti olur ki, hətta şahlar onun qarşısında aciz qalır. Naxçıvan nağılları içərisində yer alan "Fərasətli keçəl" nağılındakı keçəl obrazı fikrimizi təsdiq edən əyani nümunələrdən biridir. Gətirilən örnəkdə keçəlin rastlaşdığı hər bir hadisə, o hadisələrdən keçəlin çox ağıl və fərasətlə çıxma bacarığı daha qabarıq şəkildə təsvir olunmuşdur.

Məişət nağıllarında keçəllər, kosalar, mehtərlər biclik, hazırcavablıq rəmzi kimi maraq doğurur. Təsadüfi deyil ki, M.H.Təhmasib keçəli məişət nağıllarının orijinal surəti adlandırıb. Çünki bu tipik obraz məişət nağıllarında müxtəlif məqamlarda nəzərə çarpır. Həmişə də öz ağlı, bacarığı ilə düşmənini üstələyir (5, s.330).

Məlum olduğu kimi, Azərbaycan nağıl yaradıcılığında şah obrazları ilə bağlı yaranan nağıllar üstünlük təşkil edir. Şah obrazı məişət nağıllarının xalqın tarixi həyatını əks etdirən bədii mülahizələri özündə qoruyub saxlaması baxımından ən maraqlı obrazdır.

Nağıllarımızda tez-tez Şah Abbas surətinə rast gəlirik. Tarixdən məlumdur ki, Azərbaycan xalqı uzun illər xarici işğalçılara qarşı vətən uğrunda mübarizə aparmağa məcbur olmuşdur. Şah Abbasın hakimiyyəti illərində Azərbaycan xalqı daha ağır məşəqqətlərə məruz qalmışdır. Folklorumuzun bir sıra janrlarında biz bu tarixi hadisələrin izlərini görürük.

Ümumən Azərbaycan nağıllarında, onun kontekstində də Naxçıvandan toplanmış məişət nağıllarının çoxunda məşhur şəxsiyyətlər - şahlar haqqında məlumatlara rast gəlmək mümkündür. Şah Abbasla bağlı yaranmış nağıl mətnləri bu silsilədən olan nağıllar siyahısına aiddir. Ümumiyyətlə, Azərbaycan xalqı öz rəvayət, əfsanə və nağıllarında bir çox məşhur hökmdarların adlarını çəkmiş, onların həyat və fəaliyyətinə dair özünəməxsus mülahizələri bədii formada ifadə etməyə çalışmışdır. Astiaq, Tomris, Dara, İsgəndər, Nuşirəvan, Şah Abbas, Şah İsmayıl və başqaları haqqında belə əsərlər yaradıl-

mışdır (4, s.121). Naxçıvan nağılları içərisində yer alan və həm ədalətli, həm də zalım şah obrazları haqqında özündə dəyərli məlumat əxz edən nağıllar epik təfəkkürün inkişafının göstərən nümunələr kimi diqqəti cəlb edir. "Şah Abbasın sənəti", "Şah İsmayıl və qızıl balıq", "Şah oğlu Şah Abbasın ölüb-dirilməsi" və s .kimi nağıllar fikrimizi təsdiq edir.

Azərbaycan məişət nağıllarında olduqca ibrətamiz qadın surətləri var ki, bunların təsviri məişət nağıllarında daha geniş şəkildə verilir. Biz yenə də folklorşünas P.Əfəndiyevin nağılların bu bölgüsü haqqında maraqlı fikirlərinə diqqət edək: "...Xalq burada qadınların həm cəmiyyətdə, ailədə mövqeyi haqqında təsvirlərini verir, həm də öz fikir və qayələrini irəli sürürlər. Nağıllardan öyrənirik ki, xalq sənətkarları öz qadınlarını həm sərkərdə, igid, rəşadətli qəhrəman, evdə, ailədə gözəl, sədaqətli, vəfalı yoldaş, sirdaş, həm də gözəl, insanları valeh edən bir varlıq kimi görmək istəyirlər" (5, s.124). Bəzən belə nağıllarda müsbət keyfiyyətləri ilə zəngin olan qadın obrazları ilə yanaşı öz mənfi keyfiyyətləri ilə fitnələr törədən, yaxşıları çətinliyə salan, pis əməlləri ilə diqqət çəkən mənfi obrazlarla da qarşılaşmaq mümkündür. Amma bunu qeyd etmək lazımdır ki, Azərbaycan nağıl yaradıcılığında müsbət və mənfi qadın obrazları paralel şəkildə verilməkdədir. Çox vaxt mənfi obrazdakı acıqlı düşüncə dərəcəsi onun müsbətlər – yaxşılar üzərindəki qələbəsi ilə nəticələnir. Həmin mənfi personaj öz məkrli niyyətini gerçəkləşdirmək üçün müxtəlif üsullara əl atır. Türk mədəni ənənəsi ilə bağlı olan bu obrazların malik olduğu ziyanverici güc əski türk düşüncəsindəki mövcud olan demonik obrazların daşıdığı müxtəlif funksiyalardan qaynaqlanır. Belə ki, demonik obrazlar, professor C.Bəydilinin də dediyi kimi, yeraltı qaranlıq dünya ilə bağlı acıqlı, bədxah ruhlardır. Bunların da davamçıları nağıllarda rastlaşdığımız mənfi obrazlardır ki, bu mənfiliyi qadın obrazı timsalında daha geniş şəkildə müşahidə etmək mümkündür (2, s.95).

Məişət nağıllarında yer alan bir çox qadın obrazları ilə yanaşı mifoloji zəmində də təşəkkül tapmış qoca qarı obrazı da vardır ki, bu obraz təkcə məişət nağıllarında deyil, sehirli nağılların da həm mənfi, həm də müsbət obrazlar sistemi içərisində müşahidə olunmaqdadır. Naxçıvan nağıllar sistemində yer alan "Sehrli üzük", "Qırx Qönçə xanım", "Gülüqahqahın, Gülşahnazın nağılı", "Fərasətli keçəl" nağıllarında belə qarı obrazları mənfi obraz kimi diqqəti cəlb edir. Bəzən belə qarılar əlsiz-ayaqsız qoca qadın görkəmilə müsbət qəhrəmana ziyan verir, onu aldadır. Prof.C.Bəydili qarı obrazının mifoloji semantikası ilə bağlı maraqlı açıqlama verir: "Qarı obrazı ilə əlaqəli Azərbaycan-türk nağıllarında işlənən "küp qarısı" ifadəsi də onun xtonik demon olmasından irəli gəlir. Təsadüfi deyildir ki, küp qarısı ölüm haqqındakı ən əski təsəvvürlərin antropomorfizmindən ibarət obraz hesab edilmişdir.... Azərbaycan nağıllarında sehirli, tilsimli və olduqca kifir təsvir olunan, bəzən gözə görünməz olan, insanlara ancaq zərəri toxunan şər qüvvə ifritə də həmin küp qarısıdır ki, küp qarısı da ölüm haqqındakı ən əski təsəvvürlərin antropomorfizmindən ibarət obraz hesab edilmişdir (3, s. 218).

Azərbaycan nağılçılığında bəzən tarixi nağıl qəhrəmanı hesab edilən Ənuşirəvan, Şah Abbas, *İsgəndər* və başqalarının ədalətli hökmdar obrazı

nəzəri cəlb edəndir. Orta əsr milli məişətin bir sıra görünən və görünməyən cəhətləri əslində məişət nağıllarındakı şah obrazlarının timsalında ümumiləşdirilmişdir ki, onlarda xalqın mənəvi-əxlaqi və estetk dəyərləri özünü göstərməkdədir (5, s.232). Bu baxımdan Naxçıvan nağıllarından olan "İsgəndərin ölüb-dirilməsi" nağılı xarakterikdir. Nağılda kiçik qızını şirə verməyə məcbur olub dərd-qəm içində boğulan vəzir sonda qızının xoşbəxt olduğunu görüb çox sevinir. Vəzirin kiçik qızının məsuliyyətli və ağıllı hərəkətləri sayəsində şir övladı olan İsgəndər ölüm yuxusundan ayılır. Burada İsgəndərin ölüb-dirilməsi məqamı xalqın dünyagörüşündə tarixi qəhrəmanların ölməzlik modelini ifadə edən amildir.

Məişət nağıllarında, adətən, əsl xoşbəxtliyin ədalət, haqq, xeyirin təntənəsi olması fikri ön plana çəkilir. Bu fikri biz qəhrəmanı hansı obraz olursa olsun, bütün məişət nağıllarında izləməkdəyik. Məişət nağıllarında bu xoşbəxtliyi əldə etmək üçün qəhrəman özü çalışır. Amma bəzən sehirli nağıllara xas olan obrazları da bu nağıllarda müşahidə etmək mümkündür. Sehirli nağıllardan fərqli olaraq bu obrazlar məişət nağıllarında qəhrəmana kömək edib, onu dardan xilas edən obraz kimi çıxış etmirlər. Bu nağıllarda əsas fakt qəhrəmanın ağlı, kamalı və cəldliyidir. Həmin sehirli obrazlar sadəcə məişət nağıllarına daşınan, əsas qəhrəman ilə nağıl boyu yanaşı addımlayan obraz kimi diqqət mərkəzindədir. Müəyyən mərhələdə məişət nağıllarında sehirli obrazlardan, motivlərdən istifadə edilməsi mümkündür.

Məişət nağıllarında maraqlı məqamlardan biri də nağılın baş qəhrəmanı kimi diqqəti cəlb edən obrazın öz əl qabiliyyəti, bacarığı sayəsində düşdüyü çətinlikdən xilas olması məsələsidir. Bu da sənət, peşə, əməyə münasibət kimi normaların xalqın dünyagörüşündəki məqamını izah edir. Bu baxımdan "Şah Abbasın sənəti" (1, s.133) nağılı milli təfəkkürdə əməyə, zəhmətə, sənətə olan münasibəti müəyyənləşdirmək baxımından təqdirəlayiqdir. Şaha heç bir sənət sahibi olmadığına görə ərə getmək istəməyən kəndli qızının təkidi ilə şah Abbas keçəçilik sənətini öyrənir. Sonralar bu sənətin mahir bilicisi olan Şah Abbas məhz sənəti vasitəsilə düşmən əlindən qurtula bilir. Buradan belə nəticə əldə olunur ki, insan sənətə, peşəyə, əsl zəhmətə xoş münasibət bəsləyərsə, əsl xoşbəxtliyə qovuşar. Zəhmət sevgisi ilə zəngin olan təsəvvürlərin köməyi ilə yaranan süjetdə böyük tərbiyəedicilik xüsusiyyəti qorunub saxlanmışdır.

Ümumiyyətlə, məişət nağılları çoxsaylı mürəkkəb sxemlərə, obraz və süjetlərə malikdir. Bu obrazların hər birinin özünəməxsus dünyası vardır. Məişət nağıllarına daxil olan hər bir obraz milli dəyər daşıyıcısı kimi də əhəmiyyətli olmaqla yanaşı, həm də xalqın tarixi, etnik dünyası, müxtəlif əxlaqi dəyərləri özündə qoruyub saxlamaq baxımından da gərəklidir.

## ƏDƏBİYYAT

1. Azərbaycan nağılları – Naxçıvan. Bakı: MBM, 2005, 296 s.
2. Bayat F. Folklor dərsləri. Bakı: Elm və təhsil, 2012, 424 s.
3. Bəydili C. (Məmmədov). Türk mifoloji sözlüyü. Bakı: Elm, 2003, 418 s.
4. Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: Maarif, 1981, 403 s.

5. Nəbiyev A. Azərbaycan xalq ədəbiyyatı. II hissə, 648 səh., Bakı, “Elm” 2006, 648 s.

**РЕЗЮМЕ**

**НАЗИРА АСКЕРОВА**

**СИСТЕМА ОБРАЗОВ В БЫТОВЫХ СКАЗКАХ**

В бытовых сказках существует множество эпизодов, мотивов, сюжетов и персонажей, которые богаты нравами, традициями и мировоззрением людей. В статье рассматриваются некоторые из этих персонажей, и устанавливается, что они играют значительную роль в выражении бытового мировоззрения народа. Таким образом, в сказках, собранных в Нахчыване, отражаются образы Кечала (лысый персонаж), шаха, женщины, крестьянина и других. В то же время была проанализирована роль этих персонажей в общем сюжете сказки и получены конкретные результаты.

**Ключевые слова:** образ, народ, быт, мотив, сюжет, нравственность, сказка.

**SUMMARY**

**NAZIRA ASGAROVA**

**THE İMAGE SYSTEM İN DOMESTİC FAİRY TALES**

There are a variety of episodes, motifs, templates and images in their domestic fairy tales that are rich in people's morals, traditions and world views. İn the article, Some of these images have been investigated and they have tried to find out that they are important for expressing people's outlook on household life. So that, the fairy tales collected from Nakhchivan such as bald, shah, women, peasant, and so on. images are reflected. At the same time, the role played by these characters in the overall plot of the fairy tale, the position and the concrete results have been obtained.

**Key words:** image, people, welfare, motive, plot, morality, fairy tale.

*(Akademik Əbülfəz Amanoğlu Quliyev tərəfindən təqdim edilmişdir)*